

# TANIDINIZMI? BURA NARIN VƏTƏNİDİR...

## (Göyçayda keçirilən XIV Nar Festivalından reportaj)

*Məzahir ƏHMƏDZADƏ*

**Əvvəllər noyabrın bu vədələrində duman-çiskinli, bəzən də sulu qar havalı günlər artıq payızın da sona doğru olduğunu, qışın yaxınlaşdığını xəbər verirdi. Bu günlər isə sonbahar dediyimiz payız fəslinin sanki ikinci bir statusu olan (qızıl) dövrüdür. Yarpaqları qızarıb-saralan ağacların canlı tablosuna, bəlkə də bu tablonun həzin bir melodiyasına bənzəyir "qızıl payız".**

...Və əgər sən həm də bu gün Vətənin Göyçay adlı gözəl məkanındasansa, bəxtin daha çox gətirib.

Çünki burada yaşayacaqsan o əsrarəngiz, nağılvari, əfsanəvi Göyçay payızını, dünya şöhrətli nar festivalının sevinclərini, Dövlət bayrağımızın ucalıqlarının qürurunu...











Bax, həmin o "qızıl payız"ın külçə günlərindən biridir. Təbiətin özü qədər gözəl, inci bir şəhəri qarşı dağlar da sanki uzaqlardan qolları arasına alıb da bağrına basar; həmin o dağlardan baş alıb gələrək adını bu şəhərə yaraşdıran doğma çay da öz nəğmələrini oxuyar. Sıcaq şəfəqlərini özünün bayram hədiyyəsi kimi şölələndirən günəş də bu şəhərin bir-birindən gözəl binalarını, küçə və meydanlarını, park və bağlarını, adamları və ağacları ilıq nəfəsi ilə oxşayar, əzizləyər.

Heç bilirsən, sənin bu Vətənin necə gözəl və şöhrətlidir? Dünyanın ən seçilmişlərinin Azərbaycana məxsusluğunu bilirdin? Görürsən, narın vətəni, bu gözəl çinarlar şəhəri, şairlər, yazıçılar, bəstəkarlar, sənətkarlar, qəhrəmanlar, zəhmətkeş insanları ilə ucalan Göyçay bu gün necə də gözəl və möhtəşəmdir!

...Noyabrın 9-u, saat 11-ə az qalır. Havanın hərarəti 18 dərəcədir. Birazdan 20 dərəcəni keçəcək.

Göyçay şəhərində keçirilən bu dəfəki Nar Festivalı əvvəlkilərdən bir qədər fərqlidir. Həm Dövlət Bayrağı Günü ilə eyni vaxtda keçirilməsi, həm də iştirakçıların, qonaqların, turist turlarının çoxluğu, izdihamı ilə. Bu dəfəki festival şəhərin mərkəzindən - Heydər Əliyev prospektindən başlayaraq paralel və kəsişən küçələrə, bütün park və meydanlara, şəhər civarlarına kimi yayılıb genişlənməkdədir. Belə böyük ərazini bayramsayağı bəzəyib-düzəmək də asan bir məsələ deyil. Hər tərəfdən musiqi sədaları eşidilir, hər tərəfdə insanları birləşdirən bayram, festival sevincləri...

Hörmətli qonaqlar - millət vəkilləri, müxtəlif nazirliklərin rəhbərləri, səfirliklərin nümayəndələri, yüksək vəzifəli dövlət məmurları, tanınmış şair və yazıçılar rayon rəhbərliyi ilə birlikdə ilk olaraq Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq Ulu Öndərin xatirəsini hörmət və məhəbbətlə yad edirlər.

### ...Bayraq Meydanı

Azərbaycanın Dövət Bayrağı "Cəngi" musiqisinin sədaları altında yüksəkliklərdə dalğalanır. Yeni istifadəyə verilmiş modern üslublu bayraq muzeyinə baxışdan sonra festival Heydər Əliyev prospektində qurulmuş müxtəlif guşələrin önündən rəsmən start götürür. Əvvəlcə "Səfalı Göyçay" musiqisi ilə rəqs, sonra "Şahzadə Nar"ın təbriki...

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə qonaqları və bütün iştirakçıları salamlayaraq deyir:

- Dövlətimizin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qayğı və diqqəti sayəsində ölkəmizin elə bir bölgəsi yoxdur ki, orada inkişaf, yüksəliş və insanların xoş güzəranı arzulara işıq salmasın. Aparılan uğurlu daxili və xarici siyasətimizin nəticəsidir ki, Azərbaycan artıq dünya miqyasında stabil inkişafa malik ölkələr sırasındadır. Bu yüksəlişin töhfələrindən biri də XIV dəfə Nar Festivalını keçirdiyimiz Göyçay rayonudur.

Hörmətli tədbir iştirakçıları! Respublikamızın çox hörmətli ziyalıları, diplomatik korpusların nümayəndələri və şəhərimizin qonaqları!

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyəsinə uyğun olaraq artıq XIV dəfə keçirilən Nar Festivalı çox əlamətdar bir günə təsadüf edir. 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günüdür.

Bayraq Azərbaycan vətəndaşının üz tutduğu, görmək istədiyi ən əziz, müqəddəslik rəmzinə çevrilmiş qürur yeridir.

Bayrağa məhəbbət, Vətənə məhəbbətdir.

Hər bir Azərbaycan vətəndaşı bayrağı müqəddəs bilir.

Bizim bayrağımız, bizim qürur mənbəyimizdir, canımızdır, ürəyimizdir...

### Göyçayda

bu gün bayram bayrama qovuşur. Çünki bu gün həm də xalqımızın düşüncəsində cənnət nişanəsi olan narın bayramıdır. Nar gözəllik, məhəbbət, ruzi-bərəkət rəmzidir.

Bu gün Göyçay üçün ənənəvi sayılan və iqtisadi baxımdan faydalı olan narçılığın inkişafına əhəmiyyət verilməsi yolundakı addımlar ciddi ardıcıllıqla davam etdirilir.

Azərbaycan tarixi uzaq əsrlərə gedib çıxan narın yetişdirilməsi mədəniyyəti ilə qırılmaz surətdə bağlıdır. Nar tarixən dünyanın bir sıra ölkələrində və yurdumuzun demək olar ki, əksər regionlarında yetişdirilir. Lakin Göyçay narı ən yaxşı nar sortlarının yetişdirilməsi mərkəzi kimi qəbul edilmişdir. Bununla qürur duyan biz göyçaylılar Göyçayımıza təşrif buyuran bütün qonaqlarımızı bayraq günü və həmçinin nar festivalı münasibətilə təbrik edirik!

... "AzNar" şirkətinin nar məhsullarından ibarət satış-sərgi guşələri böyük maraq doğurur. Hər il olduğu kimi festivalın daha canlı, daha rəngarəng keçirilməsində maraqlı olan göyçaylı milyarder Fərhad Əhmədovun da özünəməxsus töhfələri var.

Göyçay narının respublikanın sərhədlərini aşaraq bütün dünyada məşhurlaşmasında da elobasına bağlı bu vətənpərvər həm də olduqca ziyalı xeyriyyəçinin xidmətləri danılmazdır.

Festivalın iştirakçılarının sayı 10 minlərlə hesablanır. Küçə və meydanlardakı izdiham bu möhtəşəmliyi xarakterizə edən başlıca amildir. Şəhərə 200-dən çox (!) turist avtobusları daxil olaraq əvvəlcədən nəzərdə tutulmuş meydançalarda parklandırılıbdır. Yüngül minik maşınları da eləcə. Bu günlər Göyçay Avropanın məşhur turist şəhərlərini xatırladır sanki.

Nar Festivalı isə öz proqramı və ya sərbəst nüansları ilə davam etməkdədir. Narla bağlı əyləncəli müsabiqələr, nar mövzusunda məktəblilərin əl işləri, "Nar şəfa mənbəyidir" adlı sərginin nümayişi, məxsusi nikah mərasimi, "Nargilə" folklor qrupunun çıxışı, Azərbaycan milli mətbəx nümunələrinin narla birlikdə təqdimi, festival iştirakçılarına nardança, nar şərab, nar mürəbbəsi, nardan hazırlanmış digər məmulatların verilməsi, nar məhsullarının satış yarmarkaları, "Gazelli" şirkətlər qrupunun nardan hazırlanmış kosmetik vasitələrinin satış sərgisi, digər mahnı, rəqs və müsabiqələrin cazibəsi o qədər təbiidir ki, tədbirin hər bir iştirakçısı sanki özünü bənzərsiz bir aləmdə hiss edir, şirin duyğularla gözəl anlar yaşayır.

### Başqa bir nüans

Tanıyan-tanımayan hamı bir-birinə mehribanlıq göstərir, təbəssümlə yanaşır, əsl bayram, əsl festival təntənəsini bölüşür.

AzNar şirkətində yeni tikilmiş otelə baxışdan sonra nahar fasiləsi olur.

Festival davam edir.

Axşam şəhər stadionunda Bakıdan gəlmiş incəsənət ustalarının düzənlədiyi bayram konsertində minlərlə tamaşaçı rəngarəng musiqi nömrələrindən zövq alır.

**Noyabrın 10-da daha çox turistlərin gəzib istirahət etməsi, tədbirlərə qoşulması ilə Nar Festivalı başa çatır.**









